# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 4-cü səhifədə).

İndeksləşmə nəticəsində pensiyaların orta aylıq məbləği 130 manat 54 qəpikdən 133 manat 89 qəpiyə çatdırılmış, başqa sözlə 2,56 faiz yüksəlmişdir.

Qəbələ Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində hal-hazırda 3.139 hərəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 187,1 min manat təşkil edir. İl ərzində 97 nəfər 18 yaşadək əlil uşağa, 111 nəfər I, II və III qrup əlillərə, 31 ailənin 52 uşağına müavinət təyinatı aparılmışdır. Bundan başqa 1.470 ailənin 1.558 uşağına uşağın anadan olmasına görə, 15 nəfərə dəfn üçün birdəfəlik müavinət ödənmişdir. 400 ailəyə ünvanlı sosial yardım, həmin ailələrdən 1 yaşadək uşağı olan 24 ailənin 27 uşağına müavinət təyin edilmişdir. Hazırda mərkəzdə 385 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Qəbələ Rayon Məşğulluq Mərkəzində il ərzində işsiz və işaxtaran kimi 600 nəfər vətəndaş qeydiyata alınmış, onların 20 nəfərinə işsizlik statusu verilmişdir. Qeydiyyatdan keçmiş 600 nəfərdən 315 nəfəri münasib işlə təmin edilmiş, 26 nəfərə işsizlik müavinəti ödənmişdir. 17 nəfər qadın “Xalçaçılıq” kursunu bitirmiş, 25 nəfər işaxtaran 1 ay müddətinə haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

Rayonumuzda sosial-iqtisadi inkişafın dinamikasının yüksələn xəttlə inkişafının nəticəsidir ki, bu gün Qəbələ nəhəng tikinti meydançasını xatırladır. Həyata keçirilən quruculuq işləri bütün yaşayış məntəqələrini əhatə edir.

Ötən il Topbağ kəndində 80 şagird yeri olan ümumi orta, Tövlə kəndində 180 şagird yerlik tam orta, Nic qəsəbəsində 360 şagird yerlik tam orta, Solquca kəndində 80 şagird yerlik ibtidai məktəb binaları, Bum qəsəbəsində 25 yerlik uşaq bağçası və Qəbələ şəhərində Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Rayon Şöbəsi üçün inzibati bina, Çuxur Qəbələ kəndində arxeoloji qazıntıların sərgisi üçün bina tikilərək istifadəyə verilmişdir. Vəndam qəsəbə 1 saylı tam orta məktəbində əsaslı təmir işləri görülmüşdür. Kiçik Pirəli kəndində 180 şagird yerlik tam orta məktəbin binasında tikinti işləri, Qəbələ şəhərindəki mədəniyyət mərkəzində, Yengicə kəndindəki «İstisu» sağlamlıq mərkəzinin yeni korpusunda, “ASPİ-AQRO” MMC-nin Qaradeyin kəndindəki şərab zavodunda, Qəbələ—Küsnət—Laza avtomobil yolunda və həmin yolda Duruca və Dəmiraparan çayları üzərində körpülərdə, Qəbələ Şəhər Məscidində son tamamlama işləri aparılır.

Bundan başqa Beynəlxalq Hava Limanı ilə Qəbələ şəhəri magistral avtomobil yolunun, Qəbələ şəhərində futbol akademiyasının, stadionlar kompleksinin, “Karvansaray” otel kompleksinin, “Qəbələ Konqres Holl”un, atçılıq kompleksinin, Bum qəsəbəsində stend və ox atıcılığı kompleksinin, Duruca müvəqqəti yaşayış ərazisində “Kanat yol”un, “Tufan” dağxizək yay-qış istirahət kompleksinin və daxili qoşunların “N” saylı hərbi hissəsinin tikintisi davam etdirilir.

Qəbələ şəhərinin Səməd Vurğun və Nizami küçələrində abadlıq və yenidənqurma işləri başa çatdırılmış, Zərifə Əliyeva küçəsində, Vəndam qəsəbəsindən keçən magistral avtomobil yolunda, Nic qəsəbəsinin mərkəzi küçəsində və qəsəbə parkında tikinti və abadlıq işləri yekunlaşdırılmışdır. Vəndam qəsəbəsində 600 başlıq, Böyük Əmili kəndində isə 650 başlıq heyvandarlıq kompleksləri inşa edilmişdir. Qəbələ şəhərində istehsal təyinatlı “Cipsi” fabriki və limonad zavodunun tikintisinə başlanılmışdır.



*Əsaslı təmir olunmuş Vəndam qəsəbə 1 saylı tam orta məktəbinin açılışında.*



*Vəndam qəsəbə 1 saylı tam orta məktəbi.*



*Ötən il tikilib istifadəyə verilmiş Tövlə kənd tam orta məktəbi.*
*Fotolar Səhrab Umuyevindir.*

Hesabat ilində rayonun təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, təhsilin keyfiyyətinin yüksəldilməsi, yeni texnologiyaların tətbiqi sahəsində xeyli işlər görülmüşdür.

Yeni dərs ilinə hazırlıqla əlaqədar məktəblərdə cari təmir işləri aparılmış, Böyük Əmili, Soltannuxa, Böyük Pirəli və Bayramkoxalı kənd tam orta məktəblərinin idman zallarının üst örtükləri dəyişdirilmişdir.

Ötən il təhsil müəssisələrinin inventar və avadanlıqlarla təchizatı diqqət mərkəzində saxlanılmış, yerli büdcə vəsaiti hesabına 116.900 manatlıq avadanlıq alınaraq məktəblərə verilmişdir.

(Ardı 6-cı səhifədə).